# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 367** **Bakı şəhəri, 23 avqust 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli və "Peşə təhsilinin dövlət standartları"nın təsdiq edilməsi və "İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulum)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 77 nömrəli Qərarının ləğv edilməsi barədə" 2019-cu il 11 mart tarixli 85 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziyalar və icazələr haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1576-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 1236 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1000; 2017, № 4, maddə 613, № 12 (II kitab), maddə 2515; 2018, № 5, maddə 1148, № 11, maddə 2430) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 4.1-ci bəndinin ikinci cümləsinə "şərti ilə" sözlərindən sonra "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 85 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 519) ilə təsdiq edilmiş "Peşə təhsilinin dövlət standartları"nın 1.2.6-cı yarımbəndində "peşə təhsilində" sözləri "peşə təhsilinin hər bir səviyyəsində" sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq q zeti $g 2019.- 28 avqust.- S.2.